

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 19 (24.156)

1 fevral 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik

## S.Z.Şahverdiyevin Naxçıvan Muxtar Respublikasının prokuroru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. Səbuhi Zəhmət oğlu Şahverdiyev Naxçıvan Muxtar Respublikasının prokuroru vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 yanvar 2023-cü il*

## Naxçıvan Muxtar Respublikasının Baş naziri ilə Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu görüşüb

*31 yanvar 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədovla Türkiyə Respublikasının Naxçıvanda yeni təyin olunmuş Baş konsulu Asip Kaya arasında görüş keçirilib.*

Baş nazir Səbuhi Məmmədov Asip Kayanı yeni vəzifə təyinatı münasibətilə təbrik edib, ona Naxçıvandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Baş nazir Azərbaycan ilə Türkiyə arasında yeganə quru sərhəd bölgəsi olan Naxçıvanda Türkiyə Respublikasının Baş Konsulluğunun fəaliyyətinin mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Ölkələrimiz arasında strateji müttəfiqlik səviyyəsinə yüksələn münasibətlərin tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası



ilə Türkiyə arasında ticarət əlaqələrinin genişləndirilməsi, enerji mübadiləsi, gömrük-keçid məsələlərinin sadələşdirilməsi, o cümlədən İğdır-Naxçıvan qaz boru kəməri və Naxçıvan-Qars dəmir yolu xətti kimi strateji layihələrin reallaşdırılması vacibliyi qeyd olunub.

Baş konsul Asip Kaya, öz növbəsində, səmimi qəbula görə minnətdarlığını bildirib. Baş konsul Tehran şəhərində Azərbaycan Respublikasının Səfirliyinə qarşı törədilmiş terror aktı nəticəsində şəhid olmuş səfirlik əməkdaşına görə başsağlığı verib.

Ölkəsinin Naxçıvana Baş konsul vəzifəsinə təyinatından məmnunluğunu ifadə edən Asip Kaya fəaliyyəti dövründə iqtisadi, ticarət, humanitar və digər sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsində səylərini əsirgəməyəcəyini bildirib.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti bir sıra qərarlar qəbul edib

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2023-cü ilin yanvar ayı ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2023-cü il 18 yanvar tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Qərarı ləğv edilərək Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğunlaşdırılmışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu, Təbii Ehtiyatlar İnstitutu, Batabat Astrofizika Rəsədxanası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyinə verildiyi üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 18 yanvar tarixli Qərarı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Aparatının və tabeliyində olan qurumların ştat cədvəlləri və strukturu yenidən təsdiq edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 2023-cü il 19 yanvar tarixli Qərarı ilə "Rayon (şəhər) qəzetlərinin ştat cədvəli"nin təsdiq edilməsi haqqında" Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə görə bundan sonra şəhər və rayon icra hakimiyyəti orqanı olan qəzetlərin ştat cədvəlləri Naxçıvan şəhər və rayon icra hakimiyyətləri tərəfindən təsdiqlənəcəkdir.

Nazirlər Kabinetinin 2023-cü il 23 yanvar tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin strukturuna daxil olan bir sıra qurumların ştat cədvəllərinin təsdiq edilməsi haqqında" və "Xüsusi qaydada fəaliyyət göstərən notariat ofisləri işçilərinin əmək haqlarının müəyyən edilməsi barədə" qərarlarında dəyişiklik edilərək, xüsusi qaydada fəaliyyət göstərən notariat ofislərinin ştat cədvəli və işçilərin aylıq vəzifə maaşlarının müəyyən edilməsi Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmaqla müvafiq qurumlar tərəfindən həyata keçiriləcəkdir.

Eyni zamanda Nazirlər Kabinetinin 2023-cü il 24 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında 2023-cü il üzrə epizootiya əleyhinə profilaktik və diaqnostik Tədbirlər Planı" və tələb olunan biopreparat və laboratoriya ləvazimatlarının Siyahısı" təsdiq edilmişdir. Sərəncama əsasən 2023-cü ildə 21 xəstəlik üzrə epizootiya əleyhinə profilaktik və diaqnostik tədbirlər dövlət maliyyə dəstəyi ilə həyata keçiriləcəkdir.

Nazirlər Kabinetinin 2023-cü il 25 yanvar tarixli Qərarı ilə "Dövlət büdcəsindən maliyyələşən və bir sıra təşkilatların işçilərinin aylıq vəzifə maaşları sxemləri təsdiq edilmişdir. Adıçəkilən Qərara görə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin, Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin, "Naxçıvan Muxtar Respublikasının dövlət arxivi və rayon (şəhər) dövlət arxivlərinin, "Naxçıvan Dövlət Film Fondunun, "Naxçıvan Muxtar Respublikası Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin" əməkdaşlarının, "İcra hakimiyyəti orqanlarının nəzdində mərkəzləşdirilmiş mühasibatlıq işçilərinin" əmək haqları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 16 yanvar tarixli Qərarına uyğun olaraq artırılmışdır.

Həmçinin Nazirlər Kabinetinin eyni tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında", "Naxçıvan Diaqnostika Müalicə Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi"nin təsdiq edilməsi barədə", "Naxçıvan Diaqnostika Müalicə Mərkəzi" publik hüquqi şəxsin ştat cədvəli"nin təsdiq edilməsi, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi barədə" qərarları ləğv edilərək müvafiq səlahiyyətlər Səhiyyə Nazirliyinə verilmişdir.

Nazirlər Kabinetinin digər bir tarixli Qərarı ilə "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına buğda və çəltik səpininə və istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların, habelə hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan mineral gübrələrin, biohumusun və pestisidlərin güzəştlə satılması Qaydaları"nın təsdiq edilməsi barədə", "Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti tərəfindən göstərilən xidmətlərin tariflərinin təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında fitosanitar tədbirlərinə və dövlət fitosanitar xidmətlərinə görə xidmət haqqının məbləğlərinin təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası ərazisində su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin tarifləri"nin təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi məqsədilə dövlət büdcəsindən maliyyələşdirilən, dövlət sifarişi ilə göstəriləcək baytarlıq xidmətlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği"nin təsdiq edilməsi haqqında" qərarları ləğv edilmişdir. Bundan sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş qaydalara və xidmət haqlarına əsasən həyata keçiriləcəkdir.

Nazirlər Kabinetinin 2023-cü il 27 yanvar tarixli Qərarı ilə "Bir sıra təsərrüfathesablı dövlət müəssisələrinin və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan bir sıra hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Qərarında dəyişiklik edilmişdir. Qərara əsasən Həmkarlar İttifaqları Komitəsinin və rayon ittifaqları şurasının ştat cədvəlləri ləğv olunaraq müvafiq səlahiyyətlərin həmin qurumlar tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nda dəyişiklik edilmişdir. Belə ki, müəssisələrdə işləyən müəllimlərin həftəlik dərs yükü 12 saat, yəni 1 stavka (həftəlik dərs yükü 2 stavkadan 3 stavkayadək artırılmış), müəssisələrə işə qəbul və müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması üçün test imtahanında test tapşırıqlarının sayı 50-dən 40-a endirilmiş, test suallarının tərkibi dəyişdirilmiş (30 sual musiqi sahəsi üzrə ixtisas biliklər, 10 sual mədəniyyət sahəsi üzrə ümumi dünyagörüşü üzrə), test tapşırıqlarının yerinə yetirilməsi üçün 75 dəqiqə verilən vaxt 60 dəqiqəyə endirilmiş, müsahibə mərhələsində namizədə verilən 30 dəqiqə vaxt isə 20 dəqiqəyə endirilmişdir. Qərarda olan dəyişikliklərə əsasən müstəsna hallarda tədris prosesinin fasiləsizliyinin və operativliyinin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sisteminə daxil olan hər hansı məktəbdə mövcud olan vakansiyanın dərhal komplektləşdirilməsinə zərurət olduqda həmin vakansiya üzrə işə qəbul müsabiqədənkənar qaydada həyata keçirilə bilər. Vakansiyanın müsabiqədənkənar qaydada komplektləşdirilməsi üçün müvafiq olaraq mədəniyyət idarələri (şöbələri) tərəfindən nazirliyə əsaslandırılmış təqdimat verilir. Müsabiqədənkənar qəbul müvəqqəti xarakter daşıyır və həmin şəxslərlə bağlanmış əmək müqaviləsinin tədris ilinin sonundan artıq müddətə qədər davam etməsinə yol verilmir. Musiqi məktəblərinin rəhbər vəzifəli şəxsləri hər hansı bir səbəbdən işdən azad olunan zaman onlar ixtisasına uyğun digər vəzifəyə keçirilə və yaxud ixtisası üzrə müəllim saxlanıla bilər. Yaşayış yerinin dəyişdirilməsi, müəssisənin ləğvi və digər üzrlü hallarda işçinin müvafiq müəssisədə əvvəlki vəzifəsinə uyğun işlə təmin edilməsi müsabiqədənkənar həyata keçirilə bilər. Müəssisələrdə daimi əmək müqaviləsi ilə işləyən müəllimlərin yerdəyişməsi ilə bağlı müraciətlərə uyğun vakant yer yarandığı təqdirdə Mədəniyyət Nazirliyinin razılığı ilə mədəniyyət idarələri (şöbələri) tərəfindən fərdi qaydada baxılır. Yerdəyişmə ilə bağlı qərar qəbul edilərkən müharibə iştirakçılarına və şəhid ailələrinin üzvlərinə üstünlük verilir.

Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki müəssisələrə işə qəbul Qaydaları"nda dəyişiklik edilmişdir. Dəyişikliyə görə işə qəbul üçün test imtahanında, ümumilikdə, 60 test tapşırıq sualının 40-a endirilməsi və sualların 20-si qanunvericilik üzrə, 15 sual mədəniyyət sahəsində ümumi dünyagörüşü üzrə, informasiya və kommunikasiya texnologiyalarına aid test tapşırığı isə 5-ə endirilmişdir. Qərara əsasən nazirliyin kadr nomenklaturasına daxil olan vəzifələr, "Şərur" Xalq Yallı Ansamblının üzvləri, texniki vəzifələr, habelə səs avadanlıqları üzrə mühəndis, texnik (radist), texnik, səhnə işıqçısı, musiqi alətlərinin təmirçisi-kökləyicisi, işıqçı, butaforçu-dekoratorçu, teatr geyimləri üzrə dərzi, dekorasiyaların hazırlanması üzrə dülgər, kukla hazırlayan, mühəndis, mühəndis-texnik, havalandırma üzrə texnik vəzifələrinə işə qəbul müsabiqədənkənar həyata keçirilir. Qabiliyyət tələb olunan ixtisaslar üzrə vəzifələri tutmaq istəyən namizədlər (bədii və yaradıcı heyət) üçün işə qəbul yalnız müsahibə vasitəsilə aparılır. İşçilərin əməyinin stimullaşdırılması məqsədilə müəssisə daxilində daha yüksək vəzifəyə təyin olunması, intizam tənbeh tədbirlərinin tətbiq edilməsi ilə əlaqədar və ya işçilərin öz istəyi ilə aşağı vəzifəyə keçirilməsi, həmçinin rəhbər vəzifələrdə çalışan şəxslərin işdən azad olunması zamanı onların ixtisasına uyğun digər vəzifəyə keçirilməsi müsabiqədənkənar həyata keçirilə bilər. Namizədlərin müvafiq vakant vəzifəyə uyğunluğu nazirlik tərəfindən təqdim edilmiş vəzifə təlimatlarına uyğun müəyyənləşdirilir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

*Tarix bina olandan bəri dünyada xeyirlə yanaşı, şər də mövcud olub, yalanla həqiqət, xofla cəsarət, əyriylə düz və igidliklə qorxaqlıq hər bir xalqın alnına yazılan yazı, hətta bir dövlətin taleyini həll edən başlıca faktor olub. Cəmiyyət olub ki, işğalçılıq meyilləri, tamahkar əqidəsi, saxta iddiaları ilə, necə deyərlər, tarixin qaranlıq bir küncündə itib-batıb, Vətən olub ki, hər bir çətinliyə sinə gərib, zamanın gərdişindən alnıaçıq, üzüağ çıxıb, "Min yol öldürülən, amma ölməyən" əzəli-əbədi torpaq olmaq hüququnu qazanıb, amalı bir mənəviyyat ocağı olub, adı zəfərlə bərabər çəkilib... Əsrlərboyu torpaqlarına göz dikilən, etiqadı təcavüzlərə məruz qalan, dəyərləri tapdalanan, milli-mənəvi sərvətlərindən qoparılan yurdumuzun taleyi nə qədər çətin olsa da, başına gətirilən ağrı-acılar səni, məni, ürəyində "Vətən daşı" olan hər birimizi haqqın sınağına çəksə də, heç zaman qamətini əyməyib, dik dayanıb. Bu hadisələrin hər birinə nəzər yetirmək, tarixə bu günün gözü ilə səyahət etmək, zamanın nəbzini tutan hadisələrlə müqayisə aparmaq, ələlxüsus da qulağa hakim kəsilən və dünyaya ünvanlanmış tarixi mesaji dinləmək insanı məcbur edir ələ qələm almağa, ağlındakı fikirləri ağ vərəqə həkk etməyə. Elə Prezident cənab İlham Əliyevin 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətində səsləndirdiyi* ***"Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də"*** *dəqiq qənaəti kimi...*

*Tarixi Azərbaycan torpaqları*

## Vətənin vüsal günü, Dahi Rəhbərin dünyaya ünvanlanmış mesaji və ya

# Zəngəzura qayıdışın bəyanatı

*Çoxəsrlik tarixin yaşıdı, türk xalqının doğma ocağı...*

Vətənimizin zəngin yaşayış yerlərindən biri kimi Zəngəzur mahalının tarixi çox qədimdir. Antik mənbələrdə bu yerlərin memarlığı, incəsənəti, qədim türk tayfalarının həyat tərzi barədə kifayət qədər dolğun və ətraflı məlumat var. Tarixi məxəzlərdə qeyd olunub ki, Zəngəzur torpağı zəngin yeraltı və yerüstü sərvətləri ilə bərabər, həm də Cavidan, Cavanşir, Babək dövründə Xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi, 30 ildən artıq sürən qanlı döyüşlərin məkanı olub. Bununla yanaşı, Zəngəzur hələ lap qədimlərdən dini, milli-mənəvi dəyərləri qoruyub saxlayan yurd yeri kimi şöhrət qazanıb. Azərbaycanın ən qədim atəşpərəstlik məbədgahlarının burada yerləşməsi də bu səbəbdən təsadüfi deyil, yəqin ki...



Füsunkar təbiəti, türk xalqlarının, ələlxüsus da ki, Azərbaycan xalqının burada yaratdığı mədəniyyət nümunələri dünyanın dörd bir tərəfindən xaricilər, böyük Nizaminin təbirincə desək, uzaq firəng (xristian) ellərindən döşüxaçlı elçiləri Zəngəzurun seyrinə çağırıb. Bu, bir tərəfdən qədim diyarımızın Zaqafqaziya regionunda böyük maraq doğurduğuna görə idisə, digər tərəfdən də Zəngəzurun tranzit yolların üzərində yerləşməsi onun tarixi taleyində böyük rol oynayırdı. Hətta bu da bir tarixi reallıqdır ki, VII əsrdə dünyaya hökmranlıq edən böyük ərəb xilafəti məhz Cənubi Azərbaycan-Naxçıvan-Biçənək-Zəngəzur-Dərələyəz-Gorus-Laçın-Bərdə istiqaməti ilə hərəkət edərək o vaxt "Alban", "Arran" adlanan Şimali Azərbaycanı zəbt edib və addımlarından sonra da Uzaq Şərqə səfərə çıxıb. Elə bu fakta söykənərək deyə bilərik ki, Zəngəzur həm də Şərqə açılan qapı idi...

X əsrin sonu – XI əsrin əvvəllərindən etibarən ölkəmizin keçmiş hüdudlarında – Dərbənddən İran körfəzinə qədər olan ərazidə türk xalqının birlik və bərabərliyi gücləndi, yerli əhalinin sayı daha da artdı. Bu yerlərdə inkişaf edən türk mədəniyyəti isə tezliklə dünyanın bir çox ərazilərinə yayıldı. Böyük Səlcuq-Türk imperiyasının tarixi faktlarından məlum olur ki, 1065-ci ildə Səlcuq-Türk imperiyasının şanlı hökmdarı Alp Arslan Qafan şəhərini tutaraq Sünik knyazlığının mövcudluğuna son qoydu. 150 il davam edən Səlcuq hökmranlığı Zəngəzur ərazisində türk-islam nüfuzunu daha da genişləndirdi, bu yerlərdə çox sayda türksoylu tayfalar məskunlaşdı.

*Qədim Türk torpağı, salam olsun şövkətüzə, elüzə...*

Şair-publisist, tibb üzrə fəlsəfə doktoru, Milli Məclisin deputatı Musa Urud "Zəngəzuru tanıyaq və tanıdaq" adlı məqaləsində yazır ki, Azərbaycan torpağındakı bölgələrin, ən qədim yaşayış məntəqələrinin adları hələ Qafqaz Albaniyasının təşəkkül tapdığı ilk vaxtlardan burada yaşayan türkmənşəli tayfalarla – prototürklərlə bağlıdır. Zəngəzurdakı Qafan, Qoroz qalası, Sisakan, Şəki, Aqvanna, Aqvani, Hot, Şələt kimi yer adları qədim türklərlə birbaşa bağlı olan toponimlərdir. Musa Urudun Zəngəzurla bağlı araşdırmalarında da qeyd edildiyi kimi, qədim türk diyarımızın, necə deyərlər, taleyi məhz türk etnosunun burada yaşaması ilə bağlı olmuş, böyük inkişaf yolu qət edərək regionun aparıcı qüvvəsinə, böyük birliyə çevrilmişdir. Hətta Qafqazda eradan əvvəl ikinci əsrdən məskunlaşmağa başlayan türkmənşəli bulqarların izləri Zəngəzurda son vaxtlara qədər qalmaqdadır. Bulqarların Qazan tayfasının adını özündə əks etdirən Qazan dağı, Qazan gölü, Qazançı kəndləri bu ərazilərdə türklərin məskunlaşmasının iki min ildən çox tarixə malik olduğunu göstərən dəlillərdir. Zonada digər böyük türk tayfalarının (peçeneq, suvar, sofulu, saral, yaycı, qiqili) adlarını daşıyan Qafan (kapan), Piçənis, Sofulu, Sarallı, Gığı, Göyərcik, Suvarlı, Yaycı və digər yaşayış məntəqələrinin olması da buranın aborigen əhalisinin məhz Azərbaycan türklərinin olduğunu sübut edən danılmaz tarixi faktlardır. Bu məqamda şair-publisist Musa Urudun eyniadlı məqaləsindəki bir fakta diqqət yetirmək, yəqin ki, mənim kimi bir çox oxucumuzun da qüruruna səbəb olar: "Tarixdən məlumdur ki, Zəngəzurun ərazisi qədim oğuzların məskənidir. Qalın İç Oğuz tayfaları bu dağlarda məskən salmış, yaşamış, mübarizə aparmışdır. Bütün türk xalqlarının qəhrəmanlıq eposu sayılan "Kitabi-Dədə Qorqud"dakı hadisələrin çoxu bu ərazilərdə baş vermiş və tarixin daş yaddaşında, insanların qan və gen yaddaşında bu günə qədər öz əks-sədasını qoruyub saxlamışdır".

*Bilinməyir yaşın sənin, nələr çəkmiş başın sənin...*

Dünyanın bir çox siyasi güclərinin, yadelli tayfaların, o cümlədən bədnam qonşumuz erməni daşnaklarının yurdumuza olan təcavüzləri ilə bağlı tarixə müraciət etdikdə də kifayət qədər tükürpədən məlumatlara rast gəlinir. Coğrafi ərazisi, milli-mənəvi dəyərləri, yeraltı və yerüstü sərvətləri daim talanan, mənəviyyatına zərbələr vurulan yurdumuzun tarixi səhifələrində düşmənlərimizin qana bulanmış əl izlərini görürük. Bu cinayətlərin qarşısında yazmaq da acizdir, elə tarix də...Tək reallıq isə yaşananları, olub-keçənləri unutmağa imkan verməməkdir.

Azərbaycanın bir çox tarixi ərazilərində (Qarabağ, Dərələyəz, Mil-Muğan) olduğu kimi, Zəngəzurda da ermənilərin kütləvi məskunlaşması Türkmənçay və Gülüstan müqavilələrinin imzalandığı illərdən sonraya təsadüf edir. Düzdür, bu alçaq xislətli "xalqın" sığınması üçün hər hansısa bir tarixi sənədə, müqaviləyə, dekretə ehtiyac olmasa da, keçmiş sovet hökuməti guya qanunlarla belə bir tarixi işə imza atırmış kimi ermənilərə sahib çıxır, bu yollarla onların dədə-baba torpaqlarımızda məskunlaşmasın bəyan etmək istəyirdi. Məqsəd isə qeyd etdiyimiz kimi, işğalçılıq niyyətini gizlətmək, onlara arxa durmaq idi. Elə belə də oldu...XIX əsrin ikinci yarısından etibarən bir çox bölgələrimizdə erməni ailələrinin yaşaması üçün şərait yaradıldı, halbuki bu yerlərin qədim sakinlərinin öz isti ocaqlarında belə bir şəraiti nəinki görmək, yaşamaq, hətta bu haqda ağıllarından belə fikir keçməmişdi. Tezliklə ərazilərdə özünə etnik yer edən erməni qəsbkarları yerli türk əhaliyə divan tutaraq onları öz ev-eşiklərindən didərgin saldı, qanunsuz həbslər, üstü açılmayan qətllər, hakimiyyətin gözündən kənar oğurluqlar, talanlar hadisələrin ən pik nöqtəsinə çatdı. Bu ağır dövrlərdən ən çox təsirlənən isə elə yenə də Zəngəzur və Qarabağ olmuşdu. Həmin hadisələri qələmə alan dövrünün tanınmış rus səfiri, yazıçı-publisist A.Qriboyedov Azərbaycana ermənilərin köçürülmə siyasəti barədə belə yazırdı: "Köçürülən ermənilərin çox hissəsi müsəlman mülkədarların torpaqlarında yerləşdirilir ki, bu da müsəlmanların haqlı narazılığına səbəb olur. Müsəlmanlar qorxurlar ki, ermənilər bu torpaqlarda möhkəmləndikdən sonra onların özlərini çıxardacaqlar". Çox təəssüf ki, Qriboyedovun bu sözləri sonradan həqiqətə çevrildi...

Tarixi mənbələrdə qeyd olunur ki, adıçəkilən dövrdən etibarən Zəngəzura köçürülən ermənilər Qarakilsə rayonunda Əlili, Şəki, Əngələvid, Bələk, Şağat, Təzəkənd, Uz, İlizin, Ağkənd, Məzrə, Qarakilsə kəndlərində yerləşdirildi, keçmiş sovet idarəçiliyi tərəfindən bu yerlərdə erməni faktorunun güclənməsi üçün qanunsuz addımlar atıldı. Sonralar bu kəndlərin taleyi çox acınacaqlı oldu. 1905-ci ildə ermənilərin xəyanətkar hücumlarına məruz qalan kəndlərin azərbaycanlı əhalisinin hamısı 1918-ci ildə deportasiya olundu. Bu hadisələrin məngənəsində əzilən xalqımızın haqlı etirazından sonra yalnız Şəki kəndinin camaatı öz dədə-baba yurdlarına qayıda bildilər. Qalan kəndlər isə zorla, ağır təzyiq ilə erməniləşdilər, sonralar isə bu kəndlərin hamısının adları mənfur düşmənlər tərəfindən qanunsuz olaraq dəyişdirildi. Əlili-Salvard, Təzəkənd-Tasik, İlizin-Lçen, Ağkənd-Aşotavan, Qarakilsə-Hatsavan adlandırıldı.

*Qarabağın işğaldan azad edilməsi digər tarixi torpaqlarımızın azadlığı yolunda atılan addımların ilkidir*

Azərbaycan Respublikası ərazisində ermənilərin yerləşməsi, demək olar ki, Birinci Qarabağ müharibəsinin başlandığı tarixə kimi hər il davam edib. 1993-cü ildə əzəli-əbədi yurdumuzun – Qarabağın işğalından sonra ermənilərin tarixi torpaqlarımızda yaratdığı idarə rejimi, milli-mənəvi dəyərlərimizə qarşı başladılmış terror aktları isə nə az, nə çox düz 30 il davam etdi. 2020-ci il 27 sentyabrda ordumuzun əks-hücum əməliyyatı ilə başlayan və 44 gün davam edən Vətən müharibəsi isə bu hadisələrə ədalət donu geyindirən ən ali, müqəddəs addım oldu. Qısa zaman müddətində, elə sentyabr əməliyyatlarının ilk günlərində rəşadətli Azərbaycan Ordusu tərəfindən bir çox yaşayış məntəqələrimiz düşmən işğalından azad edildi, strateji yüksəkliklər ordumuzun nəzarətinə keçdi. Adıçəkilən hadisələrin astanasında, elə döyüş əməliyyatlarının yeni başlandığı zamanda dünyanın siyasi gücləri sakit-səssiz olub-keçənləri müşahidə etməklə idilər. Onların bu addımlarının səbəbi də sadə idi; düşünürdülər ki, Azərbaycan Ordusu bundan əvvəl baş vermiş Tovuz əməliyyatında, Aprel döyüşlərində, habelə İyul təxribatlarına cavabda olduğu kimi düşmənin əks-hücum əməliyyatlarının qarşısını aldıqdan sonra döyüş əmrində "dur" deyəcəkdi. Lakin hadisələr gözlənilənin tamam əksinə oldu, tez bir zamanda böyük dövlətlərin baxışları Qafqaza – Azərbaycanın haqq-ədalət savaşına zilləndi...




44 günlük Vətən müharibəsinin tarixi zəfərindən sonra Ali Baş Komandan tərəfindən Azərbaycan dövlətinin şöhrəti dünyanın sərhədlərini aşmaqdadır. Beynəlxalq xəbər bülletenlərində, televiziya verilişlərinin nüfuzlu dövlət qəzetlərində Ermənistanın düçar olduğu məğlubiyyət satirik qələmlə gülüş obyektinə çevrildi, tənqid atəşinə tutuldu. İllərdir, bizim torpaqlarımızda yaşayan, indi isə ocağın öz sahiblərinin qayıdışını eşidib əllərində olan tək ata mirasını – unitazlarını götürüb Paşinyanın üstünə qaçan ermənilər barəsində hələ çox illər deyiləcək...

Qeyd etmək lazımdır ki, Qarabağın işğaldan azad edilməsi həm də dünyaya ünvanlanmış böyük qayıdışın xəbəri idi. Ali Baş Komandan tərəfindən dəfələrlə bildirilib ki, Azərbaycanın öz tarixi torpaqlarını əldə etməyə kifayət qədər gücü və siyasi əqidəsi vardır. Bu fikirlər ölkə başçısının Zəngəzur dəhlizinin açılması məsələsindəki qərarlı tutumunda və güclü siyasi ruhunda bir daha öz əksini tapıb. Ermənistan hökuməti dəfələrlə imzaladığı kapitulyasiya aktının şərtlərindən boyun qaçırmaq istəsə də, beynəlxalq hüquq normalarının tələblərindən qaça bilmədi, Ali Baş Komandanın tarixi görüşlərinin hər birində onların biabırçı məğlubiyyətləri gündəmə gətirildi. Zəngəzur dəhlizinin açılması məsələsi isə ölkə başçısının ***"Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də"*** qəti qərarının reallaşması uzaqda deyil...

*Zəngəzur dəhlizinin açılması tarixi ədalətin bərpası və təntənəsi olacaqdır*

2011-ci il 5 iyulda Dünya azərbaycanlılarının III qurultayındakı nitqində Prezident cənab İlham Əliyevin dediyi bu sözlər Qarabağ, Zəngəzurla bağlı tarixi həqiqəti çox dolğun və dürüst əks etdirir: ***"Tarix təkrarıdır. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq, görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük Türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi".***

Xatırladaq ki, tarixi Zəngəzur mahalı Ermənistanın Qafan, Gorus, Qarakilsə, Mehri rayonlarını və Azərbaycanın Zəngilan, Qubadlı, Laçın rayonlarını əhatə edib. Hazırda Ermənistanın hərbi nəzarətində olan və intizarla əsirlikdən qurtuluşunu gözləyən Zəngəzur elləri ən qədim dövrlərdən Azərbaycan ərazilərində təşəkkül tapmış dövlətlərin tərkibində mövcud olmuşdur. Çox sayda yaxın, uzaq tarixi mənbələrdə bu barədə birmənalı, təkzibolunmaz faktlar, məlumatlar mövcuddur. Lakin erməni vandalları tərəfindən həmin tarixi faktların danılması, habelə Zəngəzur dəhlizinin açılması məsələsindəki qarşıdurmalar, əmmaməli "ermənilər" Azərbaycanın yanında olmaması bəs etmirmiş kimi, havadarlarına dayaq durması prosesləri daha mürəkkəb məcraya çəkir. Lakin bu insanlığa sığışmayan hadisələrin qarşısında Azərbaycan dövləti yenə də qərarlı iradəsindən dönmür və dönməyəcək. Ermənilərin qorxuya düşməsi isə təsadüfi deyil, hadisələrə humanist mövqedən yanaşsaq, hətta onlara "haqq verək" də olar. Uzun illər İran İslam Respublikası ilə mövcud əlaqələrin bir anda kəsilməsi "qardaşı" "qardaşdan" ayıran sarsıdıcı zərbə kimi onların həyat tərzlərini, uzunillik xülyalarını, sözün əsl mənasında, alt-üst edib, "əziz xələf" əmmaməli qardaşlarının xeyir-dualarından məhrum olublar.

*Zəngəzur dəhlizinin açılması ilə Azərbaycanın, eləcə də Turan-Türk dövlətlərinin tarixində dönüş nöqtəsinin yaranacağı sübuta ehtiyacı olmayan reallıqdır. Uzun illər bu tarixi torpağın Ermənistanın nəzarətində olması Naxçıvanı Azərbaycandan ayıran, muxtar respublikamızı blokada şəraitinə salan əsas məsələ kimi bu günün aktuallığıdır. Zəngəzur dəhlizinin açılması isə tarixi torpaqlara qayıdışın bəyanatı ilə bərabər, həm də ölkəmizin ictimai həyatında başlıca rol oynayan hadisə kimi çıxış edəcək. Və az qalıb ki, deyək: – Salam, Zəngəzur dəhlizi, Zəngəzur torpağı! Tarixi torpağımızdan reportaj hazırlamaq diləyi ilə, əziz oxucumuz...*

✍ **Məcid RƏŞADƏTOĞLU**

## “Xalq qəzeti”nin əməkdaşları: *“Əsas məqsədimiz Naxçıvandakı ən kiçik yeniliyi də operativ şəkildə qəzetdə əks etdirmək, öz yazılarımızla Naxçıvanda başlanan proseslərə dəstək verməkdir”*

*Xəbər verdiyimiz kimi, ölkəmizin gündəlik ictimai-siyasi həyatını geniş oxucu kütləsinə təqdim edən “Xalq qəzeti”nin əməkdaşlarından baş redaktor müavini, Əməkdar jurnalist Tahir Aydınoğlu və İqtisadiyyat şöbəsinin müdiri Vaqif Bayramov Naxçıvan Muxtar Respublikasına gəliblər. Qonaqlar səfər çərçivəsində bir sıra təşkilatlarda olub, muxtar respublikanın elm,*



*təhsil, iqtisadi potensialı, jurnalist kadrların hazırlanması, qəzetdə yaradıcı işin təşkili barədə, bütün sahələrdə gedən dəyişikliklərin, inkişaf proseslərinin “Xalq qəzeti”ndə işıqlandırılması üçün ətraflı məlumatlar əldə ediblər. “Heydər Əliyev İli”ndə Ulu Öndərin doğma vətəninə planlaşdırılan səfərin ikinci günü jurnalistlər Heydər Əliyev Muzeyində olub, burada dahi şəxsiyyətin mənalı həyatı, siyasi fəaliyyəti barədə məlumatlar əldə edib, zəngin təəssüratlar qazanıblar. Məlumat verilib ki, bu muzey Ümummilli Liderimizin şərəfinə Azərbaycan Respublikasında yaradılmış ilk muzeydir. Naxçıvanda yaradılmış Heydər Əliyev Muzeyinin ölkəmizin digər bölgələrində yaradılan muzeylərdən fərqli cəhəti ondadır ki, Ulu Öndərimizin həyatı və fəaliyyətindən bəhs edən bu muzey onun anadan olduğu, boya-başa çatdığı, əmək fəaliyyətinə başladığı torpaqda olmaqla həm də dahi şəxsiyyət haqqında çox nadir materiallar – eksponatlarla kifayət qədər zəngindir. 420 eksponatla fəaliyyətə başlayan muzeyin fondunda bu gün 5 minə yaxın eksponat qorunub saxlanılır.*

*Naxçıvan Sənaye Kompleksinə gələn qonaqlar muxtar respublikamızda tikinti sənayesinin inkişafı, müəssisədə quraşdırılan müasir avadanlıqlar, istehsal imkanları, məhsul çeşidləri, keyfiyyət göstəriciləri haqqında dolğun informasiyalar toplayıblar.*

*Tanınmış jurnalistlər səfərin məqsədi, keçirilən görüşlər, gələcək perspektivlərlə bağlı düşüncələrini “Şərq qapısı” qəzetinin oxucuları üçün bölüşüblər:*

***Tahir Aydınoğlu – “Xalq qəzeti”nin baş redaktor müavini, Əməkdar jurnalist:*** – Təkcə böyük Cəlil Məmmədquluzadənin adını çəkmək kifayət edir ki, Naxçıvan mətbuatının necə böyük ənənələrə malik olduğu barədə dolğun fikir, böyük təəssürat yaransın. Mirzə Cəlilin yaratdığı “Molla Nəsrəddin” jurnalistikası milli mətbuatımızın demokratik özülünü, de-



mokratik düşüncənin, jurnalistlik fəaliyyətin məfkurəvi əsasını təşkil edir. Bütövlükdə, bu gün dövlətçilik ideologiyamız olan Azərbaycançılığın bir çox mühüm elementləri “Molla Nəsrəddin” jurnalistikasından qaynaqlanır. 104 illik tarixə malik “Xalq qəzeti” ilə Naxçıvanın əsas, aparıcı mətbuat orqanı olan 102 yaşlı “Şərq qapısı” arasında bir əsrə yaxın əlaqələr vardır. Hələ ötən əsrin 20-ci, 30-cu illərində, ümumiyyətlə, bütün dövrlərdə bizim redaksiya Naxçıvan mövzusunu, coğrafiya və mühitini əhatə etmək üçün “Şərq qapısı”na, onun jurnalistlərinə istinad edib. “Xalq qəzeti”nin ayrı-ayrı dövrlərdə Naxçıvanda müxbir məntəqəsi, indiki adla desək, bölgə müxbiri olub. Onların da istinadgah nöqtəsi yerli idarəçilik orqanları ilə yanaşı, professionallıq baxımdan “Şərq qapısı” qəzeti olub. Bu gün də belədir.

Onu da deyim ki, bu gün “Xalq qəzeti” ilə Naxçıvan Muxtar Respublikasının taleyində oxşar proseslər gedir, yeni bir dövrə qədəm qoyulur. Ölkə Prezidentinin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası son 30 ildə əldə etdiyi çox ciddi sosial-iqtisadi uğurların təməli üzərində yeni bir inkişaf dövrünə daxil olub. “Xalq qəzeti” də özünün bir əsrdən artıq fəaliyyətində yeni keyfiyyət dövrü elan edib: “Xalq qəzeti”sənsə, xalqın qəzeti ol! Ölkə rəhbərliyi də bizim redaksiyaya tövsiyə edib ki, mətbuat orqanı daha çox xalqın qəzeti olsun, daha çox xalqın maraqlarını əks etdirsin. Belə olduqda Azərbaycanın dövlət siyasəti ilə xalqın maraqları daha çox yaxınlaşmış olacaq. Bu baxımdan yeni inkişaf dövrünə qədəm qoymuş Naxçıvan Muxtar Respublikasının timsalında “Xalq qəzeti” üçün tarixi ənənələr üzərində yeni bir dövr başlanır. Elə biz də muxtar respublikaya bu məqsədlə ezam olunduq. Tapşırıq oldu ki, elə əlaqələr yaradaq ki, Naxçıvandakı ən kiçik yeniliyi belə dərhal, operativ şəkildə qəzetdə əks etdirək, öz yazılarımızla Naxçıvanda başlanan proseslərə dəstək verək. Və nəticədə, dövlət başçısı cənab İlham Əliyev tərəfindən Ulu Öndər Heydər Əliyevin Naxçıvan barədə vəsiyyətlərinin yeni dövrdə, “Heydər Əliyev İli”ndə daha yüksək səviyyədə gerçəkləşməsinə “Xalq qəzeti” də öz töhfəsini versin.

Səfər çərçivəsində ilk olaraq “Şərq qapısı” qəzetinin əməkdaşları, həmkarlarımızla görüşdük, redaksiyanın fəaliyyəti üçün yaradılan əlverişli şərait, maddi baza ilə tanış olduq. Görüşümüz böyük məmnunluq doğurdu. Bu gün fəxrlə demək olar ki,



ölkənin heç bir yerində jurnalistikanın, bölgə mətbuatının inkişafı üçün belə bir şərait yoxdur. Əslində, Naxçıvan mətbuatına, “Şərq qapısı”na biz şərti olaraq bölgə mətbuatı deyirik. Naxçıvan ölkənin qədim, böyük bir parçasıdır, muxtar respublika statusunda bir coğrafiyadır. Elə “Şərq qapısı” da ümumrespublika qəzeti olmağa layiqdir, ölkənin hər yerində qəzetin oxucuları vardır. Buradakı həmkarlarımızla artıq əlaqələr qurulub, əməkdaşların yazıları “Xalq qəzeti”ndə dərc olunur, gələcəkdə bu sahədə fəaliyyəti daha da genişləndirmək, büro yaratmaq istəyirik. Bütün muxtar respublika jurnalistlərini, burada nəşr olunan rayon qəzetlərində fəaliyyət göstərən həmkarlarımızı da “Xalq qəzeti” ilə əməkdaşlığa dəvət edirik. Səfər çərçivəsində AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayevlə də görüşdük, görüşlərdə əvvəlki illərdə olduğu kimi, bundan sonra da Naxçıvan elmi mühitinin, ziyalıların “Xalq qəzeti”nin ziyalı dayaq məntəqəsi olacağına əminlik ifadə edildi. Bu mənada, xüsusi qeyd edim ki, görkəmli akademiklərimizdən İsa Həbibbəyli həm Naxçıvan Dövlət Universitetinin rektoru olduğu zaman, həm də indiki dövrdə, eləcə də İsmayıl Hacıyev aktual mövzularla qəzetdə çıxış edən fəal müəlliflərdir. Naxçıvan Dövlət Universiteti barədə də onu deyə bilərəm ki, bu ali təhsil ocağı Azərbaycanı beynəlxalq arenada öz reytinqi ilə ləyaqətlə təmsil edən bir təhsil müəssisəsidir. Elbrus müəllim də məlumat verdi ki, ali təhsil ocağı ən çox tələbə kontingenti, eləcə də daha çox xarici ölkədən tələbəsi olan bir universitet imici qazanıb. Burada çox güclü tarixçilər, dilçilər, politoloqlar fəaliyyət göstərir ki, onlardan bir neçəsi “Xalq qəzeti” ilə əvvəllər əməkdaşlıq ediblər, silsilə yazıları qəzetdə işıq üzü görüb. İstərdik ki, gələcəkdə bu əlaqələr daha da güclənsin, universitetin müəllimləri daimi müəllifə çevrilsinlər.

Tahir Aydınoğlu qeyd edib ki, əsas məqsəd Azərbaycanın uğurlarının, eləcə də mövcud problemlərin, çatışmazlıqların “Xalq qəzeti”nin timsalında ölkə mətbuatına çıxmasına nail olmaqdır. Ölkə rəhbərliyi medianın çıxışlarına çox böyük önəm verir. Elə məsələlər vardır ki, onlar medianın çıxışından sonra dərhal həllini tapır. Bu Ulu Öndərin ənənəsidir. Ümummilli Lider jurnalistlərlə görüşündə deyirdi ki, mətbuat mənim idarəçilikdə ən yaxın silahdaşım olub, nöqsanların aradan qaldırılmasında mən rəsmi orqanlardan, icra qurumlarından çox mediadan dəstək, informasiya almışam. Bu baxımdan Ulu Öndər ənənələrinin layiqli davamçısı Prezident cənab İlham Əliyevin mediaya verdiyi önəmi doğrultmağa çalışırıq və inanıram ki, birgə əlaqələrimiz buna imkan verəcək. İnanırıq ki, “Xalq qəzeti” ilə “Şərq qapısı” arasındakı əlaqə yeni dövrdə daha da məhsuldar olacaq, ənənəni daha yüksək səviyyədə davam etdirə biləcəyik.

***Vaqif Bayramov – “Xalq qəzeti”nin İqtisadiyyat şöbəsinin müdiri:*** – Mənim şəxsi fikrimdir ki, Azərbaycanın



böyük şəhərlərindən sayılan nə Sumqayıtda, nə Gəncədə, eləcə də digər rayonlarda Naxçıvan Muxtar Respublikasında olan inkişafı görmüşəm. Bu da, təbii ki, ölkə Prezidenti cənab İlham Əliyevin blokadada olan diyara xüsusi diqqət və qayğısının nəticəsidir. Həqiqi mənada, Naxçıvan heç bir tarixi dövrdə belə inkişaf yolu keçməyib. Biznes Mərkəzində buradakı müəssisələrdə istehsal olunan məhsullara baxdıq, muxtar respublikanın iqtisadi potensialının nə dərəcədə güclü olduğunu əyani şəkildə gördük. Bütün bu uğurlar, nailiyyətlər həm də naxçıvanlıların zəhmətkeşliyinin, fədakarlığının nəticəsidir. Heç şübhəsiz ki, ölkə başçımızın rəhbərliyi ilə burada yaradılan yeni idarəetmə sistemi, aparılan köklü islahatlar, struktur dəyişikliklər bu inkişafa daha ciddi təkan verəcək. “Xalq qəzeti” olaraq biz də bu sosial-iqtisadi inkişaf, yeniliklər barədə məlumatlar toplayıb silsilə yazılar hazırlamaq üçün buradayıq, inanırıq ki, zəngin məlumatların timsalında gözəl, təhlili məqalələr ərsəyə gətirə biləcəyik.

**✍ Nail ƏSGƏROV**

## Uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik hesabat yığıncağı keçirilib

*Dünən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilib.*



Tədbirdə komissiyanın, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova 2022-ci il ərzində uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair muxtar respublika üzrə illik hesabatı diqqətə çatdırıb. Qeyd edilib ki, ölkə başçısının diqqət və qayğısı ilə muxtar respublikada yaşayan bütün kateqoriyadan olan uşaqlara hərtərəfli imkanlar yaradılır, onların potensial və qabiliyyətlərinin aşkarlanması, mahiyyət etibarilə layiqli və sağlam vətəndaş kimi yetişdirilməsi istiqamətində kompleks addımlar atılır.

Bildirilib ki, ötən ildə də şəhid, sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, tək valideynli, aztəminatlı uşaqların qanunla müəyyən olunmuş hüquqlarının həyata keçirilməsi və mənafelərinin müdafiəsi diqqətdə saxlanılıb, onlara müvafiq olaraq müavinətlər ödənilib və dövlət və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqları dövlət büdcəsi hesabına təmin edilib.

Qeyd edilib ki, hesabat ili ərzində 100 sağlamlıq imkanları məhdud uşağın yaşadıqları evlərdə monitorinq keçirilib, valideynlərlə geniş maarifləndirici söhbətlər aparılıb, qanunamüvafiq izahat verilib, 65 uşaq potensiallarına uyğun olaraq ümumtəhsil məktəblərinə və məktəbəqədər müəssisələrə cəlb edilib. Bundan əlavə, il ərzində 77 uşaq müəssisəsində monitorinqlər aparılıb və 216 sağlamlıq imkanları məhdud uşağın təhsil hüququ yoxlanılıb. Müvafiq uşaqlarla bağlı görülən tədbirlərin nəticəsidir ki, 2022-2023-cü tədris ilində ümumtəhsil müəssisələrinin birinci siniflərində 42, hazırlıq qruplarında 30 uşaq olmaqla, ümumilikdə, müvafiq kateqoriyadan olan 964 uşaq təhsil alır.

Vurğulanıb ki, hesabat dövrü ərzində keçirilmiş müsabiqə, olimpiada və digər tədbirlərdə 7600-ə yaxın uşaq iştirak edib, iştirakçılara 1566 medal, diplom, fəxri fərman, sertifikat və 1009 hədiyyə verilib. Həmçinin aid dövlət orqanları tərəfindən 189-a yaxın uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunub, 15 sentyabr – Bilik Günü ilə əlaqədar xüsusi kateqoriyaya aid 560 uşaq məktəbli paltarı, dərs ləvazimatları və 523 uşaq isə qış geyimi ilə təmin olunub.

Diqqətə çatdırılıb ki, yetkinlik yaşına çatmayanlar arasında nəzarətsizliyin və hüquqpozmaların profilaktikası ilə əlaqədar tədbirlər görülüb, yeniyetmələrin zərərli vərdişlərdən uzaqlaşdırılması, hüquqlarının və qanuni mənafelərinin qorunması, maarifləndirmə və təbliğat işinin aparılması məqsədilə 610 reyd yoxlaması keçirilib.

Muxtar respublikada uşaqların sayı 123981 nəfər olub. Ötən il ərzində məktəblərdə və ictimaiyyət arasında maarifləndirmə tədbirlərinə daha da üstünlük verilib, görüş və seminarlar keçirilib, uşaqların sağlamlığının qorunması, sağlamlıq tədbirlərinin yaxşılaşdırılması və uşaqlara müasir tələblərə uyğun tibbi xidmətin göstərilməsi dövlətimiz tərəfindən diqqətdə saxlanılıb.

Vurğulanıb ki, 2022-2023-cü tədris ilində muxtar respublikanın ümumtəhsil məktəblərində 52 min 746 şagird təhsil alır ki, bunlardan da 25562-si qızdır. 2021-2022-ci tədris ilində ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 1736-sı ali, 423-ü isə orta ixtisas təhsili müəssisələrinə qəbul olub, məzunlardan 19-u “Qızıl”, 22-si “Gümüş” nişana, 64 nəfər fərqlənmə attestatına, ümumi orta təhsil bazasından isə 56 nəfər fərqlənmə attestatına, 6 məzun Azərbaycan Respublikası Prezidentinin təqaüdünə layiq görülüb.

Qeyd edilib ki, bu gün muxtar respublikada 25 min 590 uşaq idmanla məşğul olur ki, bunlardan da 6555 nəfəri qızdır. İdmanla məşğul olan uşaqlar istər muxtar respublikada, istərsə də muxtar respublikadan kənarda keçirilən idman yarışlarında yüksək nailiyyətlər əldə edib, Azərbaycan birinciliyində, Azərbaycan və dünya çempionatlarında, beynəlxalq turnirlərdə 57-si I, 32-si II, 41-i isə III yer olmaqla, 130 yer qazanıblar.

Ramilə Seyidova çıxışının sonunda əminliyini bildirib ki, 2023-cü ildə muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət edən dövlət orqanları fəaliyyət istiqamətlərinə uyğun olaraq uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması, uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınması istiqamətində öz profilaktiki fəaliyyətini gücləndirəcək, üzərlərinə düşən vəzifələrin icrasını diqqətdə saxlayacaqdır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib. 2023-cü ildə uşaq müəssisələrində keçiriləcək monitorinqlərin siyahısı, monitorinq keçirilməsi üçün təşkil edilən ekspert qrupunun tərkibi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın 2023-cü il üçün İş planı təsdiq edilib.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Ötən il keçirilən imtahanlar nəticəsində 735 nəfər müvafiq vəzifələrə təyin olunub

Ötən il Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən Mədəniyyət Nazirliyinin tabeliyindəki müəssisələrə, ədliyyə orqanlarında vakant vəzifələrə, gömrük orqanlarına işə qəbul, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə, dövlət mətbuat orqanlarına, dövlət ümumtəhsil müəssisələrinə, dövlət ümumtəhsil müəssisələrində vakant vəzifələrə, məktəbəqədər tərbiyə müəssisələrinə, Naxçıvan Musiqi Kollecinə, AMEA Naxçıvan Bölməsinə, dövlət qulluğu üzrə inzibati vəzifələrin 5-7-ci təsnifatına və Səhiyyə Nazirliyinin tabeliyindəki müəssisələrə işə qəbulla bağlı, ümumilikdə, 19 müsabiqə keçirilib.

Eyni zamanda müxtəlif istiqamətlər üzrə – Daxili İşlər, Ədliyyə, Mədəniyyət nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Hərbi Prokurorluğun, Dövlət Miqrasiya Xidmətinin əməkdaşları, ümumtəhsil müəssisələrində fəaliyyət göstərən müəllimlər və səhiyyə işçiləri üçün, ümumilikdə, 10 dəfə attestasiya, sertifikasiya və diaqnostik qiymətləndirmə imtahanları keçirilib ki, bu imtahanlarda iştirak edən 4100 nəfərdən 3292-si keçid balını toplayıb.

2022-ci ildə bir neçə istiqamətdə – mədəniyyət müəssisələrinə, məktəbəqədər tərbiyə müəssisələrinə, Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinə və Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə işə qəbul üçün ilk dəfə müsabiqələr keçirilib. Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi ilə bağlı test imtahanları da ilk dəfə ötən il reallaşıb.

Ümumilikdə, 2022-ci il ərzində Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən 31 test imtahanında 9533 namizəd iştirak edib, 6488 namizəd test imtahanlarında uğur qazanıb. Keçirilən müsabiqələrdən 719, ehtiyat kadrlar siyahısından 11, inzibati rəhbər vəzifələrin tutulması üçün keçirilmiş müsabiqələrdə 5 nəfər olmaqla, ümumilikdə, 735 nəfər müvafiq vəzifələrə təyin olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

Xalq təqvimi

# Ömrü az, qabağı yaz Kiçik çillə



Böyük çillədən sonrakı dönəm xalq arasında Kiçik çillə adlanır və 20 gün davam edir. Fevral ayının 1-dən etibarən Kiçik çillə başlayır. Kiçik çillənin birinci ongünlüyündə xalq arasında Xıdır Nəbi mərasimi icra olunur. Xıdırın hər evə gəlməsini arzu edən xalq müxtəlif ayinlər icra edir. Xalq həm də belə deyir ki, Xıdırın ən çox sevdiyi buğda cücərtisindən hazırlanan qovutdur. Bunun üçün qovutu kiçik qablarda evin dörd küncünə qoyurlar. İnanırlar ki, Xıdır gəlib qovutun üzərinə barmaq basacaq, bununla da o evdə bar-bərəkət artacaqdır. Türk xalqlarında, o cümlədən Azərbaycan türklərindəki etiqada görə, Xıdır bolluq, yaşıllıq, ölümsüzlük, yenilik, sevinc daşıyan hami ruhdur. Ona hörmət, ehtiram göstərilərsə, o da həmin yerə hörmətlə yanaşar, o evə bolluq arzulayar. Əgər evdə var-dövlət, bar-bərəkət çoxalarsa, el arasında "Bu evə Xıdır gəlibdir, bu nemətə Xıdır əli dəyibdir", – deyərlər.

Qışın ikinci mərhələsi sayılan Kiçik çillə dönəmində hava, adətən, Böyük çillə ilə müqayisədə çox soyuq keçir. Elə xalq da deyir ki, əsas şaxta Böyük çillədən sonra olur, yəni Kiçik çillədə. Bu Kiçik çillə çox sərt olur. O qədər soyuq, şaxtalı keçir ki, meşədə heyvanlar, çöldə quşlar üşüyür, donur. 20 günlük Kiçik çillə nə qədər sərt olsa da, ömrü qısadır. Bu vaxt həm də günlər uzanır. Xalq yaddaşında iki qardaş və ya iki bacı kimi obrazlaşdırılan Böyük çillə və Kiçik çillə bir-birinə qarşı qoyulur. Böyük çillə nə qədər yumşaq təbiətli olaraq obrazlaşdırılırsa, Kiçik çillə onun əksinə olaraq öz təbiəti etibarilə sərt, ərköyün obraz kimi xarakterizə edilir. Bu baxımdan professor Azad Nəbiyevin fikirləri böyük önəm daşıyır: "...Maraqlı cəhətlərdən biri də odur ki, mərasim düşüncəsində insan özünün şərə, pisliyə münasibətinin müəyyən cəhətlərini Kiçik çillə ilə bağlı poetik düşüncəsində ifadə edir:

*Kiçik çillə..*
*Boyu bir belə...*
*Hikkəsi bir belə..*
*Gəlişi oldu*
*Hayınan.*
*Gedişi oldu*
*Vayınan.*
*Əlində qırmanc,*
*Eli-günü yandırdı,*
*Neçə günahsız doqqaz bağladı,*
*Neçə alaqapı sındırdı.*
*Kəsdi neçə evin yağmasın,*
*Pendirin, çörəyin, ağmasın..."*

Kiçik çillə dönəmində havaların soyuq keçməsindən xalq heç də narahat deyildir. Çünki Böyük çillə demişkən: "Ömrü azdır, qabağı yazdır". Hər kəs kəskin soyuqlarla müşayiət edilən havaların müvəqqəti olduğuna inanır. Həm də qədim təfəkkürdən irəli gələrək insanlar elə qışın ilk mərhələsindən – Böyük çillə zamanından işlərini, necə deyərlər, ehtiyatlı tutmuş, soyuq qışın onların təsərrüfat və məişətlərinə vura biləcəyi ziyanın qarşısını almaq üçün öz tədbirlərini görmüş, çillə mərasimlərinin, ayin və ritualların icrasını həyata keçirərək, bir növ, özlərini soyuq qış təhlükəsindən sığortalamışlar.

Xalq təsəvvüründə çillədən çıxmaq ağırlıqdan, məşəqqətdən qurtulmağa bərabərdir. "Çillə" sözünü bir çox tədqiqatçılar müxtəlif şəkildə izah edirlər. Folklorşünas Cəlal Bəydili bununla bağlı yazır ki, "çillə" sözü məhrumiyyət, sıxıntı, əziyyət çəkmə mənalarını verir. Bu məqam bir bayatıda öz əksini tapır:

*Əllərin saza bənzər,*
*Boyun gülnaza bənzər.*
*Bir kərə səni görsəm,*
*Çilləm də yaza bənzər.*

Kiçik çillə dönəmində hava şəraitinin kəskin soyuqlarla müşayiət olunmasına baxmayaraq, sonrakı dönəmin – Boz ayın gətirəcəyi soyuqlu-istili günlər insanların qəlbində yeni həyata ümid yaradır. Odur ki, "ömrü az, qabağı yaz" olan Kiçik çillə insanları öz soyuqluğu və şıltaqlığı ilə qorxuda bilmir. Güney Azərbaycan folklorunda da Kiçik çillənin ərköyünlüyü, təbiət etibarilə ziyanxor olmağı poetikləşir:

Kiçik çillə:
*Şaxtamı kəndə salaram,*
*Ağacları çatladaram.*
*Hər yanı buz bağladaram,*
*Tamam xəlqi ağladaram*

Böyük çillə:
*Qabağın yazdır sənin,*
*Ömrün çox azdır sənin.*
*Hərbə-zorba demə çün,*
*Fikrin dayazdır sənin.*

Kiçik çillənin, xalqımız demişkən, qışın oğlan çağının insanlara, onların təsərrüfat və məişətinə vura biləcək ziyanının qarşısını almaq üçün keçmiş dönəmlərdə icra olunan bir çox ayin və rituallar olub ki, onların çox az qismi müasir günümüzədək gəlib çıxıb. İstər qədimlərdə icra olunan, bu gün isə yalnız kiçik poetik örnəklərdə izləri yaşayan ayin və rituallar, istərsə də günümüzdə də icrası müşahidə olunan mərasim örnəkləri xalqımızın qədim mifoloji dünyagörüşündən xəbər verir.

**Aytən CƏFƏROVA**
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, dosent***

## Gənclər Günü qeyd edilib

*Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə tələbələrin 2022-2023-cü tədris ilində qazandığı uğur və nailiyyətləri əks etdirən sərgiyə baxış olub, tələbə-gənclərin səmərəli fəaliyyətini əks etdirən videoçarx nümayiş edilib.*

Ali təhsil müəssisəsinin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyuldu. 1994-cü ildə dövlət gənclər siyasətini icra edən Gənclər və İdman Nazirliyi yaradıldı. Diqqətə çatdırılıb ki, 1996-cı il 2 fevral tarixdə məhz Ulu Öndərin dəstəyi ilə gənclərin 1-ci forumu keçirildi. 1997-ci ildən isə Prezidentin Sərəncamı ilə 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başladı. Bildirilib ki, əsası görkəmli dövlət xadimi tərəfindən qoyulan dövlət gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü yeni nəsil yetişir və bu siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Vurğulanıb ki, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verib, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayıb. Prezident cənab İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də ölkədə ilk dəfə gənclər üçün Prezident mükafatının təsis edilməsi olub.



Universitetin İdman klubunun sədri Məmmədəli Rəhimov çıxışında tələbələrin idman sahəsindəki uğurlarından söz açıb. Qeyd olunub ki, gənclərin yarış və məşğələlərə cəlb olunması onlar arasında idmanı təbliğ etmək, "Sağlam bədəndə sağlam ruh olar!" devizi altında gənclər maarifləndirmək məqsədi daşıyır.

Diqqətə çatdırılıb ki, universitetin tələbələri respublikada, beynəlxalq arenada universiteti və ölkəmizi layiqincə təmsil edirlər.

Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanov cari tədris ilində gənclərin təşkilatçılığı ilə baş tutan tədbirlər, keçirilən intellektual yarışlar, olimpiadalar haqqında iştirakçıları məlumatlandırıb.

Sonda Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Bəhruz Məmmədova "Ən yaxşı fakültə tələbə təşkilatı" nominasiyası üzrə plaket təqdim edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

Milli dəyərlərimizi öyrənək və yaşadaq

# Araqçının məndədir...



Milli məişət mədəniyyətimizin ən mühüm sahələrindən biri də geyim nümunələrimizdir. Müasir dövrümüzədək öz forma və üslub xüsusiyyətini qoruyub saxlayaraq məişətimizin ayrılmaz bir hissəsini təşkil edən geyimlər xalqımızın etnik kimliyinin göstəricisi olmaqla yanaşı, həm də bütün dövrlər üçün status göstəricisi olmuşdur. Keçmişdə şəxsin hansı təbəqəni təmsil etməsini onun üzərində daşıdığı geyimlərdən təyin etmək olurdu. Bəzi geyimlər vardır ki, onların biçilib-tikilmə, istifadə xüsusiyyətlərinə, adət-ənənələrə xas inanclarla bağlı olması onları üstün edən dəyərlərdəndir. İstər qadın, istərsə də kişilər üçün xarakterik olan geyimlərdən biri də baş geyimləridir.



Kişi və qadın baş geyimləri fərqli olsa da, formaca bir-birinə bənzəyən bəzi baş geyimlərindən həm kişilər, həm də qadınlar istifadə edə bilir. Bu cür baş geyimlərinə araqçın və təsəkləri misal gətirmək olar.

Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı Gülzadə Abdulovanın "Azərbaycan milli kişi geyimləri" adlı tarixi-etnoqrafik araşdırmalar kitabında qeyd olunur: "Bu baş geyiminin adları "araqçın" və ya "tərlik" (bundan sonra "tərçək") adı ilə də məlumdur. Orta əsr mənbələrində bu ifadə tərçək adı ilə keçir. Türklər arasında baş geyimlərinin altından təsək formalı geyimlər istifadə edilməsi hələ qədimdən mövcud olmuşdur".

Qeyd edək ki, qadınlar keçmişdə, adətən, örpəklərinin altından güləbətinli, quşgözü naxışlı, muncuqlu tikmə bəzəkli araqçınlar qoyarmışlar. Həmin araqçın isə qədim xalq sənətlərimizdən biri olan zərgərlik nümunəsi "çəngəlli çənəbənd"in köməyi ilə başda rahat saxlanılması üçün bərkidilərmiş. Bu görüntü həm də estetik baxımdan gözəl görünər və örpəyin sürüşüb düşməməsinə kömək etmiş olardı. Qadın araqçınları, adətən, qiymətli və gözoxşayan parçalardan tikilib hazırlanardı.

Kişi araqçınlarına gəldikdə isə onun da özünəməxsus cəhətləri vardır. Belə araqçınlar, adətən, qiymətli papaqların altından astarlıq kimi qoyulardı. Bu, bir növ, tərdən qoruyucu rolunu oynayan və papaqların çirklənməməsi üçün əhəmiyyətli vasitə idi. Bu səbəbdən də bu cür araqçınlar, yəni tərçəklər pambıq, yumşaq materiallı parçalardan hazırlanardı. Hətta kişilər namaz qılarkən, xüsusən də ağ rəngli araqçınlar qoyardılar. Şair, etnoqraf Rəfail Oğuztürk "Papaqlar" şeirində yazır:

*Sinəmdə yer də açar odlu hazırdaşlar üçün,*
*Hazıram haqqımın uğrunda mən savaşlar üçün!*
*Papaq örtük də deyildir əyilən başlar üçün,*
*Tək Haqqa səcdədə tərk etməyib əcdadı papaq!*

Araqçınların digər papaqlardan fərqi həm də onların naxışlarla bəzədilməsi idi. Ümumilikdə, isə kişi, qadın, uşaq araqçınlarının üzərindəki bədii naxışlar gözəl görüntüsü ilə yanaşı, həm də simvolik məna daşıyırdı. Təpə hissəsinə salınan naxışlar, əsasən, səma cisimləri ilə bağlı olaraq Günəşi, ulduzları, çərxi-fələyi əks etdirmişdir. Tarixdən də məlumdur ki, hələ ta qədim zamanlardan türk xalqlarının inanc sistemində səma cisimlərinə, mifoloji dünyaya maraq böyük olmuşdur. Bu isə milli geyim nümunələrində öz əksini tapmışdır. Araqçınlarla bağlı deyimlər şifahi xalq ədəbiyyatında da geniş yayılmışdır. Eləcə də bu baş geyimi haqqında poetik nümunələrə yazılı ədəbiyyatımızda da rast gəlirik:

*Araxçının mirvari,*
*Ay qız, danış, gül barı.*
*Evimizə gəlmirsən*
*Qonşumuza gəl barı.*

Araqçınlar məişətimizdə həm də sevgi, sədaqət nişanəsi sayılırdı. Sevdiyi oğlana könül verən qız ona öz əlləri ilə tikib-bəzədiyi araqçını verərdi. Beləliklə, araqçın həm də sevgililər arasında bir əhd, etimad, inam yaranmasına vəsilə olardı.

*Araxçının məndədir,*
*Sərmişəm, çəməndədir.*
*Aləm gözələ dönsə,*
*Mənim gözüm səndədir.*

Təbii ki, zaman keçdikcə milli geyimlərimizdə baş verən dəyişikliklər baş geyimlərimizə də öz təsirini göstərmiş, zamanla bu cür geyimlərdən istifadə, demək olar ki, sıradan çıxmışdır. Bu gün araqçınlar çox məhdud şəkildə, yalnız bəzi yaşlı kişilər tərəfindən istifadə olunur. Qadınların istifadə etdikləri araqçınlar isə... indi yalnız milli geyim dəstlərimizdə yaşayır. Amma sevindirici haldır ki, xalq yaradıcılığı ilə bağlı görülən işlər, milli adət-ənənələrimizin təbliği son illərdə toy və nişan, xınayaxdı mərasimlərində qadınlarımız tərəfindən bir sıra milli geyim nümunələrimizin, eləcə də araqçınların istifadəsinə yenidən maraq oyadıb. Ümid edirik ki, müasir dövrümüzdə gündəlik geyim kimi istifadə olunmasa da müxtəlif bayram şənliklərində, festival və konsert proqramlarında, toy-nişan mərasimlərində araqçınlardan istifadə olunması bu baş geyiminin gənc nəslə tanıdılmasında böyük rol oynaya bilər.

**Aidə İBRAHİMOVA**
***Naxçıvan Dövlət Universitetinin II kurs tələbəsi***

## Elan

Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu dəftərxana ləvazimatları və təsərrüfat mallarının alınması üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Malsatanın satdığı dəftərxana ləvazimatları haqqında məlumat*
- *Bank təminatı*
- *İş təcrübəsi haqqında sənəd*

Qeyd olunmuş sənədlər toplusunu 9 fevral 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğuna təqdim etmək lazımdır.

***Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu***
***Əlaqə telefonu: (036) 545-30-29***

* * *

Naxçıvan Muxtar Respublikası Prokurorluğu dəftərxana ləvazimatları, təsərrüfat malları, təmizlik ləvazimatları və nəqliyyat vasitələrinin cari təmiri üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir. Kotirovka üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Malsatanın satdığı mallar haqqında məlumat*
- *İş və xidmətlər haqqında məlumat*
- *Bank təminatı*
- *İş təcrübəsi haqqında sənəd*

Qeyd olunmuş sənədlər toplusunu 10 fevral 2023-cü il saat $18^{00}$-a kimi Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Maddi-texniki təminat şöbəsinə təqdim etmək lazımdır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Maddi-texniki təminat şöbəsi***
***Əlaqə telefonu: (036) 545-31-30, 544-03-03***

### İtmişdir

Şərur rayonunun Ələkli kəndində yaşayan Abbasov Əli Əkbər oğluna verilmiş 8 avqust 2007-ci il tarixli 1316 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 77